*hekayə*

# QULUNUN RÜŞVƏTİ

Gizlicə nəzarətində saxladığı əllərin saydığı dəmir pullara baxdı. Pulları saya-saya əllər mehribanlıqla, ehtiyatla, həvəslə dəmir sikkələri sığallayır, əzizləyirdi. Düşündü: ”Bu pullar Qulunun aldığı rüşvətdir”. Ancaq kimdən aldığı rüşvət? Bu zaman Qulu “rüşvətini” soyuğun, yağışın, istinin altında qoyub əyləşdiyi kiçik stulun üstünə ataraq adamları yara-yara irəli qaçdı. Hay-küy salaraq “yol verin” kəlməsini təkrarlaya-təkrarlaya uzaqdan görünən avtobusa dayanacaqda yer açdı. Onun dayanmasını tənzimlədi. O da Qulunun bu canfəşanlığından sonra avtobusa minmək üçün yer tutmağa çalışdı. Ancaq həmişəki kimi bütün cidd-cəhdi adamların sıxlığından, avtobusa minmək üçün basabasdan alınmırdı. Bu zaman arxasında kiminsə “yol verin” kəlməsinin istiliyini duyaraq ürəkləndi. Adamları itələyə-itələyə onun avtobusa minməsi üçün şərait yaradan Qulunun köməyini hiss edib o da zirəkləşdi. Və nə zaman avtobusun salonuna keçdiyinin fərqinə varmadı. Qeyri-ixtiyari göz gəzdirib əyləşmək üçün oturacaq axtardı, ancaq təbii ki, bu basabasda mümkünsüz olanı dəyərləndirmək lazım idi. Bu dəfə əlləri müvazinətini saxlamaq üçün tutacaq axtardı. Və tapıb dayandı. Bundan sonra pəncərədən Qulunu axtardı nəzərləri. Axtardı ki, heç olmasa budəfəki köməyinə görə təşəkkür edə bilsin başını yelləməklə. Amma Qulu başqa işin arxasınca yüyürürdü. Bu dəfə arıq, çəlimsiz bir qızın sumkasından tutub dartaraq onu avtobusa itələyirdi. Nəhayət, qızı avtobusun salonuna doğru fırlayaraq digər sərnişinlərə göz gəzdirdi. Yəqin ki, köməyə ehtiyacı olanları gözləri arayırdı. Sonra fırlanıb sürücünün pəncərəsinə doğru getdi. Orda onunla nəsə danışıb əlini uzatdı və hiss olundu ki, Qulunun ovcuna dəmir pul sürüşüb düşdü. Qulu bundan sonra avtobusun getməsi üçün göstəriş verdi. Yəqin ki, yeni avtobusun gəlişini tənzimləmik üçün hazırlaşırdı.

O hər gün təkrarlanan bu mənzərəni seyr etməkdən yorulmurdu. Bəlkə də, dayanacaqda gözləyərkən başqa məşğuliyyəti olmadığı üçün Qulunun hərəkətlərini izləməyə məcbur idi. Ancaq getgedə bu müşahidə ona maraq verirdi. Qulunun həyatı qaynar, həyat dolu idi. Bəlkə də, kimlərəsə boş, mənasız görünə bilərdi bu iş. Ancaq Qulunun işi məsuliyyətli, ağır, həm də pozitiv idi. İnsanlara qarşılıq gözləmədən yardım etməkdən böyük nə ola bılərdi?

Onu Qulunun işi cəlb etdiyi kimi, vəzifəsi də maraqlandırmağa başlamışdı. Axı Qulunun işinin adı nə idi?

Qulu dispetçer işləyirdi. Avtobusların hərəkətini, gedişini birmərkəzi mərkəzdən idarə edirdi. Avtobusların gəliş, çıxış vaxtını nəzarətində saxlayır, sürücülərə əmrlər verirdi. Sərnişinlərə qarşı yumşaq, mehriban olan Qulu sürücülərə münasibətdə sərt idi. Bu, Qulunun öz işini necə məsuliyyətlə yerinə yetirməsindən irəli gəlirdi. Qulu sürücülərə güzəştə getmirdi. Gecikənlərə, vaxtında dayanacaqdan yola düşməyənlərə qarşı amansız idi dispetçer. Sürücülər onu yumşaltmaq istəyərək zarafata salır, Qulunu xoş sözlərlə yola gətirmək istəyirdilər.

Ay Qulu, isti vurub səni, deyəsən. Yenə də əsəbisən. Düzələr, səbirli ol.

Sənin kimilər vaxtında çatsa, vaxtında yerindən tərpənsə, düzələr. Daha boş-boş danışıb vaxtı oğurlama! Tərpən! deyib sürücünü yola salırdı Qulu.

Bütün bu ciddiyyətə, iş ağırlığına baxmayaraq Qulu sürücülərlə zarafat da etməyi, yumşaq tonda danışmağı da bacarırdı. Və hamı Qulunu çox istəyirdi. Onun ara-sıra sürücülərdən aldığı “xırda rüşvətlər” də könüllü verilən haqlar idi. Qulu yaxşı adam idi.

Yenə də avtobus gecikirdi və sərnişinlər də, Qulu da gərgin, səbirsiz idi. Bu zaman uzaqdan görünən avtobus dayanacağı çaxnaşdırdı. Qulu işgüzar halda avtobusun qabağına qaçdı və yüyürəyüyürə çığırdı:

Yol verin! Yol verin!

Hamı ora-bura səpələndi. Ancaq Qulunun uzaqlaşmasından istifadə edib yenidən avtobusun qarşısına qaçdılar. Basabas, itələşmə cəbhəsində “zirəklər” vuruşurdu. “Əfəllər” bu oyunda seyirçi idilər, amma onlar da zəif cəhdlər göstərib irəliyə can atmağa çalışırdılar. Bu isə onlarda alınmırdı. İzdihamın təzyiqindən sıxışdırılıb kənarda qalırdılar. Bax bu zaman Qulunun sehrli köməyi “əfəllərin” dadına çatırdı. “Yol verin” əmri “zirəklərin” cəbhəsini yarıb keçirdi. Hamı Quluya güvənirdi, onun köməyinə, yardımına arxalanırdı.

O, bayaqdan iki avtobusu ötürmüşdü. Heç birinə minə bilməmişdi. İndi də üçüncüyə ümidlənib Quluya baxırdı. Ancaq dispetçerin işi çox yoğun idi. Daimi sərnişini ilə maraqlana bilmirdi. Qulu onu birdən fərq etdi. Yüyürüb yanına gəldi.

Hələ də minə bilməmisən? Zirək ol!

Utana-utana:

Necə minim? Adamlar qoymur, - dedi. Və özü də dediklərindən, “əfəlliyindən”xəcalət çəkdi.

Bu an basabasda bir oğlanın dediklərindən yanıb-töküldü.

Adam zirək olar.

Qulu tərs-tərs oğlanı süzüb avtobusu gözlədi. Yavaşdan :

Mən dayandığım yerdə dur, - dedi.

Avtobusu Qulu öz bərabərində saxlatdırdı.Bu zaman elə basabas düşdü ki, o,yenə də minə bilməmək təhlükəsi ilə üzləşdi. Qulu isə qadınları kölgədə qoyub özünü irəli dürtən kişilərə əsəbiləşdi və ironiyanın ən yüksək tərzində:

Qadınlar, kişilərə yol verin! - əmrini səsləndirdi.

Dayanacaqdakılar arasında gülüşmə qopdu. Bu yumşaqlıqdan istifadə edən Qulu onu qabağa itələdi və “min” əmrini verdi.

Gözünü yumub-açınca özünü avtobusun salonunda gördü. Və yenə də dispetçerə təşəkkürünü çatdıra bilmədi. Yerindən tərpənib irəli atılan avtobusun sürətindən yırğalandı. Müvazinətini saxlaya bilməyib kiminsə üstünə yıxıldı. Amma qələbəlikdən onu yıxılmağa qoymadılar. Yırğalanan insan selinin içərisində ümumi ahəngə qoşulub müvazinətini bərpa etdi.Kimsə ufuldadı, kiminsə narazılıq dolu səsi gəldi. Ancaq yenə də hamı günün sona çatmasından yaranmış yorğunluqdan kəskin şəkildə dillənmədi,səbirlə susub mənzil başına çatmasını gözlədi. Avtobusun pəncərəsindən dayanacağı süzdü. Dispetçer o yan-bu yana qaçırdı. Yenə də kimlərəsə yardım edir, sürücülərin üstünə çığırır, nizamı saxlmağa çalışırdı. Bu zaman Qulunun ayağı ilişdi və o, üzüqoylu asfaltın üstünə yıxıldı. İstər-istəməz içini çəkdi. Kimsə bərkdən:

Can-can!-dedi.

Başqa bir sərnişin:

Yazıq, görəsən, bərk əzildi?-dilləndi.

Ora-bura qaçmaqdan əldən düşüb yazıq. Qışın soyuğu, yayın istisi bilmir, işinə can yandırır, - deyə üçüncü səs eşidildi.

Yoğun kişi səsi deyilənlərə narazılıqla:

İşidir, görür. Çörəyini qazanır. Nə etməlidir? Hamı əziyyətlə bir tikə çörək qazanır, - deyə münasibət bildirdi.

Birinci səs acıqla:

Hamı əziyyət çəkir, ancaq dispetçerin işi daha ağırdır. Hamıya kömək edir, vəzifəsi olmayan işi də görür, - dedi.

Yoğun kişi səsi donquldandı:

Elə bil onu məcbur eləyən var.

Söhbət kəsildi və yıxılan Qulu gözdən itdi. Ancaq onun fikri dispetçerin yanında qaldı. Sabah istirahət günü idi. İki gün dərs yox idi və evdən çıxmayacaqdı. Qulunun başına gələni öyrənmək istəyi isə narhat edirdi onu.”Bəlkə, geri qayıdım. Yox, zorla minmişəm. Onda sabah gəlim dispetçerin halını öyrənim. Hamısından yaxşı sabah gəlməkdir”. Düşündüklərindən bir qədər rahatlandı. Vicdanı sakitləşdi. Sabahı açmaq ümidi ilə evinə çatdı və gecənin yorğun qucağında işlərini yekunlaşdırıb yatdı.

Bütün gecəni yuxuda Qulunu gördü. Onu gülərüz, həmişəkindən fərqli olaraq sakit, səbirli, mülayim tərzdə müşahidə etdi. Səhər evdən çıxa bilmədi, amma bütün günün nəbzində “dispetçerin halı” vardı. Fikri, xəyalı Qulu ilə məşğul idi. Nəhayət, səhəri gün avtobusun boş salonunda fədakar Qulunu yoxlamağa getdi. İstirahət günü olduğundan şəhər də, miniklər də seyrək idi. Rahatlıq, özünəgüvən hissi ona hakim kəsilmişdi bu rahatlıqdan. İnsanlar da elə bil həmişəkindən fərqli olaraq gülərüz, mehriban idilər. Həftənin beş günü həsrət qaldığı oturacağa yayxandı. Bir anlıq bu rahatlıqdan özü də rahatsızlaşdı. Durub avtobusun tutacaqlarından asılmaq gəldi içindən və istəyinə gülməyi tutdu. Qaçmış dodağını dişləyib özünü saxladı. Qulunun məntəqəsinə gəlib çatdı. Avtobusun pəncərəsindən nəzərləri Qulunu axtardı. Görə bilməyib narahatlıq hissi keçirdi. Qapılar açılan kimi özünü yerə atdı. Ancaq dispetçer yox idi.”Görəsən, əzilib?” Əə bu vaxt Qulu kiçik budkanın arxasından axsaya-axsaya çıxdı. İstər-istəməz sevindi. Gözləri ilə onu müşahidə etdi gəlib çatınca. Gülümsəyə-gülümsəyə Quluya baxdı. Nəzərləri ilə onu salamladı. Dispetçer də daimi sərnişini gözləri ilə sual-cavab etdi sanki: “Bu gün nə işin var burda? Axı istirahat günüdür”. O da gözləri ilə cavablandırdı:”Sizə görə gəlmişəm. Ogünkü hadisədən sonra narahat idim”.İkisi də gülümsədi. Dilsiz danışıq bununla bitdi və o, evdən çıxdığı üçün yaxın dükanlardan birinə gedib alış-veriş etdi. Lakin Quluya baş çəkməsi əsas idi onun aləmində.Qayıdanda əziz bir adamını yoxladığı hissiylə dönürdü evə.

Dayanacaq seyrəklik idi. İstirahət gününün təsirindən yaranmış “boşluğun” dadını Qulu da çıxarırdı. Kiçik oturacağına sığınıb cibləri eşələyən dispetçer ətrafdakıları görmürmüş kimi sevimli məşğuliyyətinə dalmışdı: dəmir pulları çıxarıb saymaqla məşğul olacaqdı. Onun sifətində məmnunluq hissi vardı. Duyulurdu ki, cingildəyən “rüşvətinin” hesabını aparmaq ona böyük zövq verir. Pulları ovuclayıb qucağına tökdü. Köynəyinin ətəyi ilə dağılmağa qoymadı. Köynəyinin çırkli qolları ilə burnunu sildi və başını qaldırıb bir anlıq avtobuslar gələn səmtə baxdı. Sakitlik olduğunu görüb həvəslə pullarını cingildətməyə başladı. Pulları barmaqlarının arasından sürüşdürüb saydıqca gözləri işıldayan Qulunun bu haqq-hesabdan böyük zövq aldığı gözlərinin işığından, sifətinin cizgilərindən bəlli olurdu. Bu an düşündü: “Görəsən, Qulunun “kiçik” rüşvəti “böyük” rüşvətlər yanında günah sayılırmı?” Bu müqayisədən özünün də gülməyi gəldi. Yaxın-uzaq qohumlarının kimlərəsə verdiyi rüşvətlər haqqında deyilənləri xatırlayıb Qulunun rüşvətinə haqq qazandırdı. “Qulu alnının təri, zəhməti hesabına dəmir pulları rüşvət alır, amma kağız pulların rüşvətini əldə edənlər...”

* * *

... Yeni bir iş günü idi. Qulu yenə də həmişəki kimi “yol verin, yol verin” deyib bu dəfə avtobusların sərnişinlərini “oğurlayıb” aparmaq istəyən taksiləri perikdirməyə çalışırdı. Bəzi üzlü taksi şoferləri donquldanıb:

Ay Qulu, nə paxıllıqdır, qoy bir tikə çörək pulumuzu qazanaq da, - desələr də, dispetçer onlara əhəmiyyət vermirdi.

Yəqin, gün ərzində belə narazılıq dolu şikayətləri Qulu çox eşidirdi. Ancaq Qulu haqlı idi. O, heç kimin “bir tikə çörək puluna” bais olmurdu. O, işini görürdü: avtobusların gedişini tənzimləyir, dayanacaqda sərbəst dayanmasına şərait yaradırdı.

Gör eşidir zalım oğlu. Elə bil dədəsinin stoyankasıdır. Nə olar bir az da taksilərə şərait yaratsa. Eybi yox, az qalıb sənin də ömrünə. Təzə avtobuslarda serviz kartladır. Bir azdan ucqarlara da gəlib çatar yeni xidmət növü, sən də çörəyindən qalarsan, - deyə taksi şoferi donquldadı.

Narazılıq edən taksi şoferləri də özlərini haqlı sayırdılar. Ancaq onların “levi” oğurladıqları müştərilər avtobusların sərnişinləri hesabına olurdu. Dayanacaqda dayanmaqdan bezən, basırıqdan ürəyi sıxılanlar avtobuslara “xəyanət edib” taksiləri seçəndə Qulu ürəyində, bəlkə də, özünü müqəssir sayırdı. “Yəqin, mən yaxşı xidmət etmirəm ki, sərnişinlər avtobuslardan vaz keçirlər”. Bəzən Qulunun nərə çəkib sərnişinləri avtobuslara doldurması da,yəqin, bu düşüncəsindən irəli gəlirdi. Bəlkə də...

Ay Qulu, bəsdi də.

Sürücünün narazılıq dolu səsinə başını qaldırıb axşamçağının qələbəliyindən dayanacaqda yaranmış sıxlığı yarıb insanları avtobusa dolduran dispetçerə baxdı. Qulu şoferi ləngidib minə bilməyən sərnişinlərə yardım edirdi həmişəki kimi. Taksi şoferləri qanlı-qanlı uzaqdan bu mənzərəni seyr edib:

Zalım oğlu, bizə müştəri qoymadı qalsın. Avtobusu ağzına kimi qapadı.-deyinirdilər.

Ancaq Qulunun olanlar vecinə deyildi. O, işini görürdü. Sonra fırlanıb dəmir pulunu alanda sürücüyə cavab verdi:

Sür getsin.

Qulu sevinclə dəmir pulu cibinə salıb cingildədəndə onun ağlına qəribə fikir gəldi:” Qulunun rüşvəti haqlı, yerində alınmış rüşvətdir. Qışın soyuğunda, yayın cırhacırında alın təri ilə üstünə düşən vəzifədən artıq can yandıran dispetçer rüşvət yox, öz haqqını alırdı. Bəs kağız pula susayıb kabinetlərdə rahat-rahat əyləşib katibələrindən qulluq, nəvaziş görüb rüşvət alanlar necə? Onlardamı haqlıdırlar?” Sürücü əyləci necə basdısa sərnişinlər üst-üstə qalandılar. Bayaq Qulunun min cür zəhmətlə avtobusa yığdığı adamlar bu anda,yəqin ki,Qulunu söyürdülər. Ancaq Qulu xoşbəxt, kefi kök idi. O, işini görürdü: xalqa xidmət edirdi. Avtobusun öz ləngərini düzəldib irəli atılmağından düzələn insanların içərisində o da xoşbəxt, özünü güvəndə hiss edərək fikirləşdi: “Görəsən, xalqın adından çıxış edib onun dərisini soyanların Qulu adlı dispetçerin varlığından xəbəri varmı? Ya da ki, Qulu xalqın dostu olaraq həmin şəxslərə nə demək istəyərdi?”

***21 avqust 2017-ci il***

*Ruhəngiz* Əşrəfqızı
*yazıçı-publisist*
*(Neftçala)*